**Qan**

O güllə yağmurunda
onlar düşdü oda.
Mən də ölə bilərdim o gecə,
sən də,
          o da,
Mən qala-qala,
sən dura-dura
onlar öldülər,
onlar gəldilər bura!
hələ nə yol gəlmişdilər,
şəhid qaldılar burda.
Canlarıyla
Vətənin ən müqəddəs yerini
onlar aldılar burda!..
Şəhid-şəhid
yaşamaq haqqı qazandılar.
Özül-özül, yazı-yazı
yan-yana uzandılar.
Onlar bizdən çox yandılar,
onlar bizə yandılar.
Biz adicə sağ qaldıq,
ömürü onlar qazandılar!..
Onlar öldülər,
ölməz oldular – bildik.
Onlar öldülər, onlar,
bizsə öldük-dirildik...
Sən də ölə bilərdin o gecə,
mən də,
          o da.
Vətən oğul deyəndə
onlar düşəcək yada.
Yağıya atəş-atəş
açdılar qanlarını.
Onlar bağışladılar
Vətənə canlarını.
Mən ölmədim,
sən ölmədin,
onlar öldü.
Bəlkə

baxt onların üzünə güldü.
Amansız bir sınaqla
o gecə o gün gəldi.
Vətənin damarına
onların qanı uyğun gəldi!..

Salahzadə Ə. Qan : şeir // Ulduz. – 1990. - № 2. – S.1.